Nazir qonaqları Təhsil Nazirliyində görməkdən məmnunluğunu ifadə edərək “Tomson Röyters” Agentliyi ilə əməkdaşlığın inkişafı üçün son illər xeyli işlər görüldüyünü bildirib. Agentliyin fəaliyyətinə ölkəmizdə böyük maraq olduğunu nəzərə çatdıran Misir Mərdanov Azərbaycanda elmin inkişafı, alimlərimizin beynəlxalq səviyyədə tanınması, impakt faktoru olan elmi jurnallarda daha çox məqalələrin dərc olunması baxımından səmərəli əlaqələrin yaradılmasının xüsusi əhəmiyyətini qeyd edib. Hələlik Azərbaycanda dərc olunan yalnız bir jurnalın “Tomson Röyters” Agentliyinin Elmi İnformasiya İnstitutunun bazasına daxil edildiyini söyləyən təhsil naziri onların sayının artması, azərbaycanlı alimlərin məqalələrinə istinad indeksinin yüksəlməsi üçün böyük potensialın mövcud olduğunu nəzərə çatdırıb.

Misir Mərdanov Azərbaycanda nəşr olunan 400-ə yaxın elmi jurnal və məcmuənin Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlərin siyahısına daxil edildiyi haqqında qonaqlara məlumat verib. Son illər Azərbaycan alimlərinin impakt faktoru olan beynəlxalq elmi jurnallarda daha çox məqalələrinin dərc edildiyini vurğulayan nazir bu baxımdan “Tomson Röyters” Agentliyi ilə birgə beynəlxalq konfransların təşkilinin əhəmiyyətinə toxunub. Agentliklə əməkdaşlıq sayəsində beynəlxalq patentlər barədə məlumatların alınmasının perspektiv elmi-tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsinə müsbət təsiri barədə fikirlərini bildirən təhsil naziri qarşılıqlı əlaqələrin inkişafına verdikləri önəmə görə qonaqlara təşəkkürünü bildirib.

“Tomson Röyters” Agentliyinin Mərkəzi və Şərqi Avropa ölkələri üzrə meneceri Devid Horki səmimi qəbul üçün təhsil naziri Misir Mərdanova təşəkkürünü bildirib. Təmsil etdiyi agentliyin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verən qonaq “Tomson Röyters” Agentliyi ilə əməkdaşlığın əhəmiyyəti haqqında fikirlərini bildirib. Devid Horki qeyd edib ki, Azərbaycanın elmi nəşrlərinin “Tomson Röyters” Agentliyinin Elmi İnformasiya İnstitutunun bazasına daxil olunması, impakt faktoru olan beynəlxalq elmi jurnallarda azərbaycanlı alimlərin daha çox məqalələrinin dərc edilməsi və digər istiqamətlər üzrə uğurlu nəticələrin qazanılması üçün agentlik tərəfindən bütün zəruri tədbirlər həyata keçiriləcəkdir.

“Tomson Röyters” Agentliyinin Afrika və MDB ölkələri üzrə baş meneceri Nader Kırqız birgə əməkdaşlığın inkişafı istiqamətində Azərbaycana hərtərəfli dəstək göstərməyə hazır olduqlarını bildirib. Qonaq qeyd edib ki, ilkin olaraq ali təhsil müəssisələrinin nümayəndələri, elmi jurnalların kollektivləri və alimlər üçün müvafiq seminarlar təşkil ediləcək, qarşıya qoyulmuş hədəflərə uyğun strategiya müəyyənləşdiriləcəkdir.

Təhsil naziri Misir Mərdanov Azərbaycana “Tomson Röyters” Agentliyinin məlumat bazasından istifadə hüququnun verilməsi istiqamətində müvafiq sənədlərin hazırlanması üçün bir sıra digər dövlət qurumları ilə birgə işlərin görüldüyünü nəzərə çatdırıb. Qarşılıqlı əməkdaşlığın uğurlu nəticələr verəcəyinə əminliyini ifadə edən nazir Azərbaycanın yaxın gələcəkdə “Tomson Röyters” Agentliyinin ən yaxın tərəfdaşına çevriləcəyinə ümidvar olduğunu bildirib.

Daha sonra görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri və perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.